# AZƏRBAYCAN TİBB ASSOSİASİYASI (ATA)

**Azərbaycanın sağlam gələcəyi naminə birlikdə!**

# TİBBİ ETİK KODEKS

(**ATA üzvləri üçün**)

Assosasiyanin **Etika Komitəsi** tərəfindən hazırlanmış
və ATA-nın təsis konfransında qəbul edilmişdir.

**15 sentyabr, 1999-cu il, Bakı, Azərbaycan**

Assosasiyanın Nizamnaməsində qeyd olunan əsas məqsədlərindən biri Həkimlərin yüksək əqidə və peşəkarlıq prinsipləri ətrafında birləşməsini təmin etməkdir. Tibbi Etikanın əsas prinsipləri Həkimlik fəaliyyətində ilk əvvəl Həkim – Pasient münasibətlərini əhatə edir. Peşəkar fəaliyyətində Həkim yalnız pasient qarşısında deyil, həm də həmkarları və cəmiyyət qarşısında məsulliyyət və cavabdehlik daşıyır. ATA-nın Etika Komitəsi etik norma və qaydaların hazırlanmasina cavabdehdir.

**Həkimlər tərəfindən Həkimlər üçün hazırlanmış TİBBİ ETİK KODEKS**in əsas müddəaları, həkimlərdən tələb olunan yüksək etik, əxlaqi və peşəkar davranış qaydalarını müəyyən edir.

## ƏSAS MÜDDƏALAR

***Həkim*** *insan ləyaqətini üstün tutaraq, özünü keyfiyyətli tibbi xidmət göstərməyə həsr etməlidir;*

***Həkim*** *öz münasibətində pasient və həmkarlarına qarşı səmimi, düzgün, vicdanlı və sədaqətli olmalıdır;*

***Həkim*** *qanunun aliliyinə hörmət etməli, eyni zamanda pasientin maraqlarına zidd olan qərəzli fəaliyyətinə görə məsuliyyət daşımalıdır;*

***Həkim*** *pasient və həmkarlarının hüquqlarına hörmət etməlidir, “Həkimlik Sirri”-ni qorumalıdır;*

***Həkim*** *öz biliklərini daima təkmilləşdirməli, ehtiyac olduqda həmkarları ilə məsləhətləşməli və onların təcrübəsindən istifadə etməlidir;*

***Həkim*** *cəmiyyətin sağlamlığına yönəlmiş bütün fəaliyyətlərdə öz məsuliyyətini və cavabdehliyini dərk edərək iştirak etməlidir;*

***Həkim*** *fövqəladə hallar istisna olmaqla, kimə və kiminlə birgə tibbi xidmət göstərmək seçimində sərbəst olmalıdır.*

Copyright 1999-2013. Azərbaycan Tibb Assosasiyası , Bütün haqlar qorunur.